# Xarici ölkələrdə 20 Yanvar faciəsi anılıb






## Vaşinqton

Vaşinqtonda 20 Yanvar - Ümumxalq Hüzn Gününün 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Azərbaycanın ABŞ-dəki səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində baş tutmuş tədbirdə səfirliyin heyəti, Azərbaycan icmasının nümayəndələri, o cümlədən bu ölkədə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Anım tədbirində ilk olaraq 20 Yanvar şəhidlərinin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən Azərbaycanın ABŞ-dəki səfiri Xəzər İbrahim bildirib ki, 20 Yanvar tək Azərbaycan üçün önəmli tarixi hadisə deyil, eyni zamanda digər xalqlar üçün də müstəqillik, suverenlik mesajı idi. "Biz heç zaman şəhidlərimizi unutmayacağıq. Onların adlarını, ülvi düşüncələrini yaşadacağıq. Eyni zamanda çalışacağıq ki, öz işimizlə Azərbaycanı daha güclü edək və xüsusilə ABŞ-də bu hadisələri daha çox tanıdaq", - deyə o qeyd edib.

Səfirin sözlərinə görə, bundan əvvəlki illərdə 20 Yanvarın necə faciəvi bir gün olduğu və nələr baş verdiyi barədə sadəcə danışılırdı, bu gün isə artıq tələbələr, icma nümayəndələri həmin günü ABŞ-də, o cümlədən universitetlərdə və mətbuatda təbliğ etməyə dair təkliflərlə çıxış edirlər.

Xəzər İbrahim əlavə edib ki, Azərbaycan xalqının birliyi hər zaman davam edəcək: "Ali Baş Komandanımız bizə şəhidlərimiz və əsgərlərimizlə birlikdə qələbələr gətirib. Əminəm ki, biz bundan sonra da bir olaraq bu zəfərlərin sayını çoxaldacağıq".

Tədbir çərçivəsində Azərbaycan Ticarət və Mədəniyyət Mərkəzində Qanlı Yanvara həsr olunmuş guşə yaradılıb. Guşədə 20 Yanvar faciəsi haqqında məlumatlar və hadisənin dəhşətli anlarını əks etdirən fotoşəkillər nümayiş olunub.

## London

Azərbaycanın Böyük Britaniyadakı səfirliyində 20 Yanvar faciəsinin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Tədbirə Britaniyada yaşayan Azərbaycan diasporunun üzvləri, Britaniyada təhsil alan azərbaycanlı tələbələr, Londondakı diplomatik korpusun üzvləri, media nümayəndələri və digər şəxslər qatılıb. Əvvəlcə qonaqlar hadisələri əks etdirən ingilis dilində qısa filmə baxıblar. Daha sonra şəhidlərimizin ruhu birdəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Böyük Britaniyadakı səfiri Elin Süleymanov çıxış edərək 20 Yanvar hadisələri barədə danışıb. Həmin dövrdə Moskvada təhsil aldığını və hadisələrdən sonra Ümummilli Lider Heydər Əliyevin Azərbaycan nümayəndəliyindəki çıxışının canlı şahidi olduğunu deyən diplomat bildirib ki, həmin vaxt Azərbaycan hələ öz müstəqilliyini bərpa etməsə də, məhz həmin çıxış zamanı Ümummilli Liderin yeni doğulmaqda olan müstəqil Azərbaycanın lideri olduğu artıq görünürdü. Diplomat əlavə edib ki, 20 Yanvar gecəsi şəhid olanların Azərbaycanda yaşayan bütün xalqlar və dinlərin nümayəndələri olmaları etnik və mədəni müxtəlifliyin hər zaman ölkəmizin ən ümdə xüsusiyyətlərindən biri olduğunun bariz göstəricisidir.

Səfir müasir, güclü və multikultural Azərbaycanın şəhidlərin əziz xatirəsinə ən dəyərli hörmət olduğunu vurğulayıb, hər bir azərbaycanlının bundan sonra da ölkəmizin azadlığı və suverenliyinin keşiyində durmalı olmasının önəminə toxunub. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, ordumuzun rəşadəti və xalqımızın birliyi nəticəsində bu gün Azərbaycanın inamla irəlilədiyini deyən səfir xüsusən üzünü tədbirdə iştirak edən gənc tələbələrə tutaraq Azərbaycanın gələcəyinin onlara əmanət olduğunu deyib.

Gürcüəsilli tədqiqatçı Tamara Draqadze 20 Yanvar hadisələri zamanı Azərbaycanda olduğunu və hadisələrin gedişatını yaxından izlədiyini qeyd edib. O bildirib ki, 20 Yanvar hadisələri zamanı məqsədli şəkildə azərbaycanlı mülki şəxslər hədəfə alınmışdı və burada məqsəd azadlıq əzmini qırmaq idi. O, müasir Azərbaycanın uğurla inkişafına şahid olmaqdan məmnun olduğunu əlavə edib.

Tədbirdə iştirak edən Milli Məclisin deputatı, Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Fariz İsmayılzadə 20 Yanvarın müasir Azərbaycanın tarixində həqiqətən də dönüş nöqtəsi olduğunu qeyd edib. O, bu gün Azərbaycanın müstəqil dövlət kimi inkişafından, regional liderə çevrilməsindən, müstəqilliyə gedən yolda verdiyimiz qurbanların heç vaxt unudulmamasının əhəmiyyətindən danışıb.

Daha sonra Londonda fəaliyyət göstərən musiqiçi həmyerlilərimiz Rasim Fərziyev və Səadət Fərziyeva şəhidlərimizin xatirəsinə piano və kamançada həzin musiqi nömrələri səsləndiriblər.

Qeyd edək ki, tədbir günü Azərbaycanın Britaniyadakı səfirliyində ölkəmizin müstəqilliyi uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsinə yaradılmış guşədə qərənfillər düzülüb, hadisələrin 35-ci ildönümü münasibətilə 35 ədəd şam yandırılıb.

## Paris

Azərbaycanın Fransadakı səfirliyinin təşkilatçılığı ilə 20 Yanvar faciəsinin 35-ci ildönümü silsilə tədbirlərlə anılıb.

Azərbaycanın Fransadakı səfiri Leyla Abdullayeva səfirliyin Mədəniyyət Mərkəzində təşkil edilmiş anım tədbirində 20 Yanvar hadisələrindən danışıb. Azərbaycanın müasir tarixinə qanla yazılmış 20 Yanvarın ölkəmizin azadlıq, müstəqillik mübarizəsinin şərəfli səhifəsi olduğunu qeyd edib.

35 il əvvəl baş vermiş Qanlı Yanvar gecəsində yaşadığı anları bölüşən diplomat bildirib ki, Qanlı Yanvar hadisələri Azərbaycanın istiqlalı yolunda milli məfkurədən güc alan qarşısıalınmaz azadlıq istəyinin başlanğıc mərhələsi oldu. Bu hadisə Azərbaycan xalqının iradəsini qıra bilmədi, milli azadlıq hərəkatının daha da yüksəlməsinə və nəticədə Azərbaycanın yenidən müstəqilliyə nail olmasına gətirib çıxardı.

L.Abdullayeva qeyd edib ki, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Qanlı Yanvar hadisələrinə ilk siyasi qiymət verən qərar qəbul edilib. Bu təcavüz xalqımızı mənəvi cəhətdən çox sarsıtsa da, onun mənliyini tapdalaya, qürurunu sındıra bilmədi, qəhrəmanlıq salnaməsinə yeni bir səhifə kimi yazıldı.

"Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz tariximizin ən möhtəşəm səhifəsini yazdı. Prezident İlham Əliyev Qarabağ Zəfəri ilə Azərbaycan xalqının arzusunu gerçəkləşdirdi. Xalqın həmrəyliyi, ordunun gücü və rəhbərliyin qətiyyəti bu zəfərimizi reallaşdırdı. 20 Yanvar gecəsində tankların altında əzilən, lakin sarsılmayan iradə Qarabağda qələbəyə çevrildi.

Bu gün Azərbaycan regionun lider ölkəsidir. Müstəqil siyasət aparan ölkələrdəndir. Bunun təməlində güclü siyasi iradəmiz və iqtisadi müstəqilliyimiz dayanır. Güclü Azərbaycan özünün müstəqil siyasi, iqtisadi fəaliyyətini regional və beynəlxalq səhnədə uğurla davam etdirir", - deyə səfir L. Abdullayeva vurğulayıb.

Anım tədbiri 20 Yanvar şəhidlərinin xatirəsinə həsr edilmiş klassik musiqi proqramı ilə davam edib. Konsertdə azərbaycanlı və fransız musiqiçilər - tarzən Sahib Paşazadə, Parisdə yaşayan azərbaycanəsilli Səidə Zülfüqarova (piano), Omo Bello (soprano) və Qiyom Martinye (violonçel) hər iki ölkənin musiqilərini ifa ediblər. Konsertdə Asəf Zeynallı, Hacı Xanməmmədov, Fikrət Əmirov, Azər Rzayev, Arif Məlikov, Vasif Adıgözəlov, Fərhad Bədəlbəyli ilə yanaşı, İ.Bax, H.Duparc, K.Debüsi, H.Villa-Lobos, L.Bernşteyn, A.Piazzola və Fazil Sayın da əsərləri səsləndirilib.

Tədbir məkanında 20 Yanvar şəhidlərindən bəhs edən kitablar, şəkillər nümayiş olunub.

Qeyd edək ki, yanvarın 20-də Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında daimi nümayəndəliyin əməkdaşları Sen-Klu qəbiristanlığında Paris Sülh Konfransının iştirakçısı olmuş Əlimərdan bəy Topçubaşovun və Ceyhun Hacıbəylinin məzarlarını ziyarət ediblər.

## Ankara

Azərbaycan Respublikasının Türkiyədəki səfirliyinin, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADİV) və Türk Dövlətləri Təşkilatının (TDT) birgə təşkilatçılığı ilə keçirilən anım tədbiri şəhidlərin əziz xatirəsinə birdəqiqəlik sükut və iki ölkənin Dövlət himnləri ilə başlayıb.

Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin ruhuna "Qurani-Kərim" oxunmasından sonra, 20 Yanvar faciəsinin mahiyyətini əks etdirən film nümayiş etdirilib.

Səfirliyin müşaviri Eldar Əliyev açılış nitqində 1990-cı il yanvarın 20-də müstəqillik uğrunda ayağa qalxan dinc xalqın səsinin bütün dünyanın gözü önündə qanla boğulduğunu qeyd edərək, Azərbaycana qarşı yürüdülən ikili standartlara diqqət yönəldib.

O, Ümummilli Liderin Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək sovet rejiminin qanlı siyasətinə etiraz etdiyini vurğulayaraq, Azərbaycanın müstəqilliyini məhz həmin tarixdə qazandığını qeyd edib.

TADİV sədri Aygün Attar 20 Yanvarı Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsinin yazıldığı tarix adlandıraraq, Azərbaycanın yalnız öz müstəqilliyi uğrunda mübarizə aparmadığını, sovet rejimi tərəfindən istismar edilən türk xalqlarının da istiqlal yolunu açdığını ifadə edib.

Türkiyə Respublikası Prezidentinin müşaviri Yalçın Topçu 20 Yanvar faciəsinin matəm günü olmaqla yanaşı, azadlığa gedən yolun başlanğıcı olduğunu, şəhidlərin qanının sovet imperiyasını çökdürdüyünü bildirib.

Ankaradakı Hacı Bayram Vəli Universitetinin professoru Zakir Avşar 20 Yanvar tarixinin mahiyyəti və Azərbaycan tarixində yerinə dair geniş çıxış edib.

Türk Dünyası Parlamentarilər Fondunun sədri Abdullah Çalışkan, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Fondunun sədri Akkan Suver və Türkiyənin gənclik və idman nazirinin müavini Safa Koçoğlu da mövzu ilə bağlı çıxış ediblər.

Anım mərasiminin sonunda "Qanlı Yanvar" fotosərgisinin açılışı olub.

Tədbirdə dövlət rəsmiləri, ictimai xadimlər, ziyalılar, qeyri-hökumət təşkilatlarının təmsilçiləri iştirak ediblər.

## Sankt-Peterburq

Azərbaycanın Rusiyanın Sankt-Peterburq şəhərindəki baş konsulluğunda "20 Yanvar - Qan yaddaşımız və qəhrəmanlıq tariximiz" mövzusunda "dəyirmi masa" keçirilib. Tədbir çərçivəsində 20 Yanvar faciəsini əks etdirən fotolardan ibarət sərgi də açılıb.

Baş konsulluqda Azərbaycanın Dövlət bayrağı yarıya qədər endirilib və şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Baş konsul vəzifəsini icra edən Anar Yusifzadə 1990-cı ilin 20 Yanvar günü Azərbaycan tarixinin həm kədərli səhifəsinin, həm də azadlığa gedən yolda canlarını qurban verən Vətən övladlarının misilsiz fədakarlıqları ilə qəhrəmanlıq səhifəsinin yazıldığını bildirib.

Diplomat qanlı faciəyə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi məsələsinin Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdığını deyib. O, faciənin ertəsi günü - yanvarın 21-də Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu, baş vermiş faciənin hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan etdiyini, Azərbaycan xalqına qarşı edilən tarixi cinayət adlandırdığını qeyd edib.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il Vətən müharibəsi və 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsi ilə bütün şəhidlərimizin ruhunun şad olduğu anım tədbiri iştirakçılarının diqqətinə çatdırılıb.

Sankt-Peterburqda Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Vaqif Məmişov çıxışı zamanı 20 Yanvar faciəsinin Azərbaycan xalqına və insanlıq əleyhinə törədilmiş terror aktı olduğunu, məhz Ulu Öndər Heydər Əliyevin sayəsində hadisələrə ilk hüquqi qiymətin verildiyini, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərə daim dövlət qayğısının göstərildiyini, şəhidlərin əziz xatirəsinin hər zaman dünya azərbaycanlıları tərəfindən ehtiramla yad edildiyini vurğulayıb.

Türkiyənin Sankt-Peterburqdakı baş konsulu Özgün Talu da Azərbaycan dövlətinə və xalqına başsağlığı verib. O, müstəqillik yolunda canlarından keçmiş şəhidlərin xatirəsinin Türkiyə tərəfindən hər zaman uca tutulduğunu və Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə şəhidlərin ruhunun artıq rahatlıq tapdığını bildirib.

Sonda 20 Yanvar faciəsindən bəhs edən "Qanlı şənbə gecəsi" sənədli filmi nümayiş etdirilib.

## Berlin

20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar Azərbaycanın Almaniyadakı səfirliyində anım tədbiri təşkil olunub.

Anım tədbiri faciə qurbanlarının əziz xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Azərbaycanın Almaniyadakı səfirliyinin müşaviri Cavid Nəsirli 20 Yanvarın Azərbaycanın müstəqillik mübarizəsində dönüş nöqtəsi olduğunu, bu hadisənin xalqımızın tarixinə həm faciə, həm də qəhrəmanlıq dastanı kimi yazıldığını qeyd edib.

Diplomat 1990-cı il yanvarın 19-20-də SSRİ rəhbərliyinin göstərişi ilə sovet qoşunlarının Vətənin azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan qəhrəman oğul və qızlarımıza, eləcə də dinc əhaliyə qarşı qanlı qırğın törətdiyini, 147 insanın qətlə yetirildiyini, 744 nəfərin yaralandığını, 800-dən çox şəxsin qanunsuz həbs edildiyini, 4 nəfərin itkin düşdüyünü diqqətə çatdırıb. Qanlı hadisənin ertəsi günü Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet rəhbərliyinə qarşı açıq və sərt etirazını bildirdiyi, faciəyə ilk dəfə siyasi-hüquqi qiymətin də məhz Ümummilli Liderin təşəbbüsü ilə verildiyi diqqətə çatdırılıb. Azərbaycan xalqının milli azadlıq yolunda şəhid olan qəhrəmanların xatirəsini daim ən dərin ehtiramla yad etdiyi qeyd olunub.

Tədbir Berlində fəaliyyət göstərən azərbaycanlı pianoçu Nərmin Nəcəfovanın ifası ilə davam edib.

Anım tədbiri çərçivəsində faciə ilə bağlı fotosərgi təşkil olunub.

Sonda 20 Yanvar şəhidlərinin xatirəsinə ehsan verilib.

## Roma

Azərbaycanın İtaliyadakı səfirliyində 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar anım tədbiri keçirilib.

Əvvəlcə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqlik sükutla yad olunub.

Ölkəmizin İtaliyadakı səfiri Rəşad Aslanov 20 Yanvar tarixinin Azərbaycan üçün əhəmiyyətindən danışıb, bu hadisələrin ölkəmizin müstəqilliyinə gedən yolda xüsusi yeri olduğunu bildirib.

Diplomat 1990-cı il yanvarın 20-də sovet imperiyasının Azərbaycanın ərazi bütövlüyünün pozulmasına etiraz olaraq küçələrə toplaşan, azadlıq, müstəqillik və suverenlik ideallarını müdafiə edən insanlara qarşı dəhşətli cinayət törətdiyini, sovet qoşunlarının Bakıya və ölkəmizin digər rayonlarına hərbi müdaxiləsi nəticəsində 147 dinc sakinin öldürüldüyünü qeyd edib. Bildirib ki, yanvarın 21-də Ulu Öndər Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirib, 20 Yanvar faciəsinə siyasi qiymət verib. Daha sonra Ümummilli Liderin təşəbbüsü ilə Milli Məclisdə 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verən ilk sənəd qəbul olunub.

R.Aslanov Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, eləcə də 2023-cü ilin sentyabrında həyata keçirilən uğurlu antiterror tədbirləri nəticəsində Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tam bərpa olunması ilə 20 Yanvar tarixinin bu gün xüsusi məna kəsb etdiyini vurğulayıb. Bildirib ki, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu bu gün şaddır.

Tədbirdə Qanlı Yanvar faciəsinə dair videoçarx nümayiş olunub.

## Strasburq

Strasburqda 20 Yanvar faciəsinin 35-ci ildönümü ilə əlaqədar ölkəmizin Avropa Şurası (AŞ) yanında daimi nümayəndəliyində anım tədbiri keçirilib.

Tədbirdə xalqımızın azadlığı, dövlətimizin müstəqilliyi uğrunda mübarizədə canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Fəxrəddin İsmayılov ölkəmizin müstəqillik mübarizəsinin qanlı səhifəsi olan 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə baş vermiş hadisələrdən bəhs edib, Qanlı Yanvar hadisəsinin xalqımız üçün faciə olmaqla yanaşı, millətimizin qəhrəmanlığı, yenilməz iradəsinin rəmzinə çevrildiyini söyləyib. O, 35 il keçməsinə baxmayaraq, sovet qoşunlarının Azərbaycanda törətdiyi qırğının ağrı-acısının unudulmadığını və şəhidlərimizin xatirəsinin xalqımızın qəlbində əbədi yaşadığını vurğulayıb.

Daimi nümayəndə Azərbaycanın üzləşdiyi faciənin ertəsi günü Ulu Öndər Heydər Əliyevin SSRİ-nin paytaxtı Moskvada ədalətin təmin edilməsi üçün 20 Yanvar qırğınını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdiyini və xalqımızın başına gətirilən müsibəti dünyaya çatdırdığını qeyd edib.

F.İsmayılov ölkəmizə ərazi iddialarının irəli sürülməsi və Ermənistandan azərbaycanlıların zorla qovulması ilə başlayan 20 Yanvar faciəsi və hərbi işğalla davam edən məşəqqətli tarixi dövrün Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam bərpası ilə sona çatdığını, xalqımız və ölkəmiz üçün artıq yeni dövrün başladığını diqqətə çatdırıb.

Tədbirdə Azərbaycan Televiziyasının hazırladığı və Qanlı Yanvar hadisələrindən bəhs edən sənədli film nümayiş olunub.

Anım tədbirində Strasburqdakı diplomatlarımızla yanaşı, bu şəhərdə yaşayan Azərbaycan icmasının üzvləri də iştirak ediblər.

## Təl-Əviv

Yanvarın 20-də Azərbaycan Respublikasının İsrail Dövlətindəki səfirliyində 1990-cı il 20 Yanvar tarixində baş vermiş faciəvi hadisələrin 35-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.

Səfirlikdən bildirilib ki, tədbirdə İsraildə yaşayan Azərbaycan icmasının nümayəndələri, o cümlədən 20 Yanvar hadisələrinin canlı şahidləri olan şəxslər iştirak ediblər.

Tədbir 20 Yanvar gecəsi şəhid olanların xatirəsini yad etmək üçün birdəqiqəlik sükutla başlayıb. Daha sonra səfir Muxtar Məmmədov, AZİZ Beynəlxalq Assosiasiyasının prezidenti Adam Amilov və 20 Yanvar hadisələrinin canlı şahidləri olan Azərbaycan diasporunun nümayəndələri müzakirə formatında çıxışlar ediblər.

Çıxış edənlərdən Şimon Peres 20 Yanvar gecəsi təcili tibbi yardım xidmətində çalışıb, Petr Lukimson həmin dövrdə Bakıda nəşr olunan "Elm" qəzetinin redaktoru və hadisələri işıqlandıran jurnalistlərdən biri olub. Azərbaycan Dövlət Radiosunun ictimai-siyasi verilişlər şöbəsinin keçmiş redaktoru Viktoriya Dolinskaya və onun həmkarları isə həmin gecə sovet tanklarının hücumuna məruz qalmış jurnalistlər arasında olsalar da, xilas olmağı bacarıblar.

***AZƏRTAC***




